

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 174 (21.326)

*5 sentyabr 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçin etimadnaməsini qəbul edib.

Səfir Gennadi Axramoviç fəxri qarovul dəstəsinin qarşısından keçib.

Gennadi Axramoviç etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Xızı rayonunda suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də “Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsi çərçivəsində Siyəzən rayonunda yeni suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində də iştirak edib.



## Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə yeni avtobuslar verilmişdir





“Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəqliyyat sektorunun inkişafı, xüsusilə sərnişindaşıma xidmətinin təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Dövlət proqramına uyğun olaraq, bu gün muxtar respublikada şəhərdaxili və rayonlararası nəqliyyatda işləyən avtobusların daha müasir avtobuslarla əvəz olunması diqqət mərkəzində saxlanılır, sərnişinlərə nümunəvi xidmət göstərilir.

Sentyabrın 4-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə yeni avtobuslar təqdim olunmuşdur.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada aparılan quruculuq tədbirləri nəticəsində yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulmuşdur. Yeni yolların çəkilməsi, müasir xidmət imkanlarına malik avtovağzalların tikilməsi, şəhərdaxili və kəndlərarası marşrutlarda iritutumlu və rahat avtobusların istifadəyə verilməsi xidmətin səviyyəsini yüksəltmişdir. Hazırda muxtar respublikada 303 avtobusla rayon mərkəzləri və kəndlərin hamısına gediş-gəliş təmin edilmişdir. Ötən dövrdə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin də maddi-texniki bazası möhkəmləndirilmiş, müasir Avtobus Parkı istifadəyə verilmişdir. Mirsənani Seyidov yol-nəqliyyat kompleksinin inkişafına göstərilən qayğıya görə muxtar respublika nəqliyyatçıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə yeni avtobusların təqdim olunması münasibətilə kollektivi və sürücüləri təbrik edərək demişdir: Bu gün ölkəmizdə bütün sahələr inkişaf etdirilir. Xüsusilə də insan amili ilə bağlı olan məsələlər daim diqqət mərkəzində saxlanılır. Son illər sərnişindaşımalar üzrə xidmətin səviyyəsinin yaxşılaşdırılması da bu tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Ölkə başçısının diqqət və qayğısı nəticəsində nəqliyyat infrastrukturunun yenilənməsi, yeni metro və qatar vaqonlarının, avtobusların və taksilərin alınması bu sahədə əhaliyə göstərilən xidmətin müasir tələblər səviyyəsində qurulmasına imkan vermişdir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada da bu istiqamətdə ardıcıl tədbirlər görülür. Bu gün muxtar respublikanın yaşayış məntəqələrinin hamısı marşrutlarla təmin olunmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən 140-a yaxın marşrutda əhaliyə ictimai nəqliyyat xidməti göstərilir. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində nəqliyyat xidmətinin nümunəvi təşkili bu tədbirlər sırasında xüsusi yer tutur. Çünki Naxçıvan şəhərində universitetlər, kolleclər, məktəblər yerləşir, sənaye müəssisələri fəaliyyət göstərir, gələn qonaqlarla birlikdə hər gün 10 mindən artıq insan nəqliyyat xidmətindən istifadə edir. İnsanların iş yerlərinə, tələbə və şagirdlərin isə təhsil müəssisələrinə vaxtında çatdırılması ictimai nəqliyyat vasitələrinin yenilənməsini zəruri edirdi.

Ali Məclisin Sədri demişdir: Bu sahədə həyata keçirilən tədbirləri daha da təkmilləşdirmək, muxtar respublikada əhali artımını, gələn qonaqların sayını və yeni tədris ilinin başlanmasını nəzərə alaraq 7 ədəd yeni avtobus alınaraq Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə verilmişdir. Yeni alınan avtobuslar xidmətin düzgün təşkilinə və sərnişinlərin rahatlığının təmin olunmasına imkan verəcəkdir. Həmçinin bu avtobusların alınması hesabına 14 yeni iş yeri açılmışdır. Ona görə də sürücülər avtobuslara mütəmadi texniki xidmət göstərməli, şəhərdaxili marşrutların iş qrafikinə vaxtında əməl olunmalıdır.

Naxçıvan şəhərində sərnişindaşıma xidmətinin yüksək səviyyədə təşkil olunacağına əminliyini bildirən Ali Məclisin Sədri bir daha kollektivi yeni avtobusların alınması və iş yerlərinin açılması münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri yeni avtobusların açarlarını sürücülərə təqdim etmiş və onlara işlərində uğurlar arzulamışdır.

Avtobuslara baxış zamanı məlumat verilmişdir ki, yeni avtobusların 5-i “Kinq-Lonq”, 2-si isə “İsuzu” markalıdır. “Kinq-Lonq” markalı avtobusların hər birində 23, “İsuzu” markalı avtobusların hər birində isə 25 oturacaq vardır. Bu nəqliyyat vasitələri ayaq üstə dayanan sərnişinlər də nəzərə alınmaqla 48 sərnişinə xidmət göstərə biləcəkdir. Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan avtobuslar yüksək manevrə malikdir. Avtobusların geniş salonunda sərnişinlərin rahatlığı üçün hər cür şərait vardır.

“İsuzu” markalı avtobusda hərəkət qabiliyyəti məhdud olanlar üçün xüsusi oturacaq və əlil arabası yerləri ayrılmış, əlavə girişlə təchiz edilmişdir. Kondisioner sistemi də quraşdırılan bu avtobusda sərnişinlərin ön və arxa qapıdan düşmələrini nəzərə alaraq dayan-tələb düyməsi qoyulmuşdur. Qapılar tam bağlanmadıqda avtobusların hərəkəti mümkün deyil. Bu da sərnişinlərin rahatlığı və təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub

***Sentyabrın 4-də Şahbuz Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.***

Müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə verilən tapşırıqların yerinə yetirilməsi üçün rayon İcra Hakimiyyətində tədbirlər planı hazırlanmış, nəzərdə tutulmuş məsələlərin icrasına başlanmışdır.



Rayonda fəaliyyət göstərən təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin, eləcə də digər sosial obyektlərin qışa hazırlanması, əhalinin qış mövsümündə enerji və yanacaqla fasiləsiz təmin olunması, inzibati binaların, kəndarası yolların təmiri diqqət mərkəzində saxlanılır.

Rayon mərkəzində fəaliyyət göstərən 43 idarə, təşkilat və müəssisələrin yerləşdikləri inzibati binalardan 37-də müasir istilik sistemi quraşdırılmışdır. Şəhər, qəsəbə və kəndlərdə, ümumilikdə, 21 yaşayış məntəqəsində fəaliyyət göstərən xidmət müəssisələrinin yerləşdikləri binalar müasir istilik sistemi ilə qızdırılacaq.

Bildirilmişdir ki, qarşıdan gələn payız-qış mövsümünə hazırlıqla əlaqədar müasir istilik sistemi ilə qızdırılacaq məktəblərdə qazanxanalara baxış keçirilmişdir. 21 məktəbdə binaların müasir istilik sistemi ilə qızdırılması təmin ediləcək. İki məktəbin ağ neft yanacağı ilə qızdırılması nəzərdə tutulmuş, bu məqsədlə lazımi material və yanacağın vaxtında alınıb gətirilməsi üçün ilkin tədbirlər görülmüşdür.

Nurəddin Quliyev müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır ki, 2015-2016-cı ilin payız-qış mövsümündə nəqliyyatın normal hərəkəti üçün bir sıra işlər görülmüş, kəndarası avtomobil yolları təmir edilərək Şahbuz-Kükü, Yuxarı Qışlaq-Aşağı Qışlaq kənd avtomobil yollarının sıradan çıxmış hissələrinə asfalt-beton örtük salınmışdır. Avtomobil yollarını sel sularından qorunması məqsədilə Şahbuz-Batabat magistralının, Kükü, Nursu və Şada kənd avtomobil yollarının bütün su keçidləri təmizlənmiş, sel sularının yaratdığı maneələr aradan qaldırılmışdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Rabitə İdarəsinin rəisi Fazil Umudov, Elektrik Şəbəkəsinin direktoru Tural Quliyev, Qaz İstismarı İdarəsinin rəisi Xəqani Məmmədov, Yol Təmir-İstismar İdarəsinin rəisi Arzu Qurbanov və başqaları çıxış edərək 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar görüləcək işlərdən, qarşıda duran vəzifələrdən danışmışlar.

**Xəbərlər şöbəsi**

# Dağ kəndləri müasirliyə qovuşur

## Şurudda həyata keçirilmiş quruculuq tədbirləri Gal kəndində davam etdirilir

***Muxtar respublikada ictimai təsərrüfatların tabeliyində olan torpaqların əhalinin istifadəsinə verilməsinə Culfa rayonunun Şurud və Gal kəndlərindən başlanıldığını bilirdim. Onu da bilirdim ki, müstəqilliyin ilk bəhrəsi kimi atılan bu addım həmin kəndlərdə yaşayan insanların həyat tərzinə təsirsiz ötüşməyib. Və ötən günlərin birində bunun bir daha şahidi oldum. Həyata keçirilən bu tədbir, sözün həqiqi mənasında, bir vaxtlar bu yaşayış məntəqələrindəki şəraitsizlik, imkansızlıq, həyat səviyyəsinin çox aşağı olması ucbatından sakinlərin doğma ata-baba torpaqlarını sahibsiz qoymağın qarşısını aldı. Kənd adamı öz torpağının əsl sahibinə çevrildi. Təkcə bir fakta diqqət yetirək. İslahat zamanı hər bir şurudluya 3,1 hektar, Gal kənd sakininə 2,7 hektar pay torpaq sahəsi düşüb. Bu gün həmin kəndlərdə elə ailələr var ki, onlar 15-20 hektar torpaq sahəsinə malikdirlər.***

### *Yolumuz Şurud kəndinədir*

Rayon mərkəzi Culfa şəhərindən yola düşərkən saat 12 radələri idi. Buradan Şuruda qədərki yolun 38 kilometr olduğunu bilirdim. Sürücüdən neçə dəqiqəyə ora çata biləcəyimizi soruşanda gülümsəyərək cavab verdi:

– Bir saata.

Təəccübləndiyimizi görüb bizi çox intizarda saxlamadı:

– Dizə kəndi ərazisindən başlayaraq Gala gedən yol yenidən qurulur.

Artıq həmin ünvandayıq. Buraya çoxlu sayda texnika və işçi qüvvəsi cəlb olunub. Yol inşaatçıları yol yatağını genişləndirir, yolkənarı arxları qaydaya salır, su keçidlərini texniki göstəricələrə uyğun şəkildə yenidən qururlar. Yolun müasir standartlar səviyyəsində işlənməsi bu kəndlərin sakinlərinin böyük sevincinə səbəb olub. Qeyd edək ki, "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı"na əsasən, Culfa rayonunda da bu istiqamətdə xeyli iş görülüb və növbəti yenidənqurma tədbiri həmin işlərin davamı kimi dəyərləndirilə bilər. Məlumat üçün bildirək ki, bu gün Şurud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə 47 təsərrüfatda 135, həmin kəndin tərkibində olan Galda 39 təsərrüfatda 180 sakin yaşayır. Deməli, bu kəndlərə üz tutan qonaq-qaradan əvvəl 315 sakinin yol problemi öz həllini tapmaqdadır.

* * *

Budur, Gal kəndinə çatırıq. Kəndin girəcəyi böyük tikinti meydançasını xatırladır. Ancaq bu haqda bir qədər sonra məlumat verəcəyik. Hələliksə, yolumuz Şurud kəndinədir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi Qurban Abdullayev deyir ki, muxtar respublikanın ucqar dağ yaşayış məntəqələri hərtərəfli qayğı əhatəsindədir. Belə ünvanlara daha böyük diqqət göstərilir. İslahatlar zamanı əhaliyə verilən torpaqlardan səmərəli istifadə olunması, məhsul bolluğu yaradılması diqqət mərkəzində saxlanılıb. Əkinçinin sağ əli sayılan texnikalarla təminata ciddi önəm verilib. Suvarma suyu məsələləri də həllini tapıb. Bu gün kənd sakinləri bir qarış torpağı belə, əkilməmiş qoymurlar. Taxıl əkən də var, kartofçuluqla məşğul olan da. Bütün həyətlər bağ-bağatdır. Hansı kənd adamından soruşsanız, razılığını bildirəcək. Kəndin ən yaşlı sakinlərindən biri, ömrünün doqquzuncu onilliyini yaşayan Əli Şəkərəliyev Şurudun ağsaqqallarındandır. Bütün övladları ali təhsil alıblar. 83 yaşlı Əli dayı kənd meydanında söhbət etməyi qonaqpərvərlikdən uzaq hesab edərək bizi evinə dəvət edir. Ağsaqqalın təklifini yerə salmırıq. Üz tuturuq onlara. Gözəl kənd həyət-bacası zövqümüzü oxşayır. Müxtəlif meyvə ağacları, gül-çiçəklər, səliqə ilə əkilmiş müxtəlif əkinçilik məhsulları Əli dayının zəhmətkeşliyindən soraq verir. Bu yaşda insanın zəhmətə belə bağlılığına təəccüb etməyə bilmirsən. Elə bil o da qəlbimizdən keçənləri duyur. Deyir ki, bir gün əlimə bel, oraq almasam, özümü narahat hiss edirəm. Gözümü açandan zəhmətlə məşğul olmuşam. Məni yaşadan da zəhmətdir.

Burada olan qonşu Sənubər Əhmədova da söhbətə qoşulur. 93 yaşlı qadının hafizəsinə təəccüb etməmək mümkün deyil. Kəndin tarixi ilə bağlı maraqlı söhbətlər edir. Dünəni ilə bu günü arasında olan fərqləri bir-bir sadalayır. Deyir ki, insanın qayğı gördüyü yerdə yaşamaq arzusu daha da güclənir. Bu gün Şurudda uzunömürlülüyün bir səbəbi də bundadır. Gənclərə də öz arzularını bildirir: bizim görmədiyimiz günləri bu gün siz görürsünüz. Dövlətimizin yaratdığı belə şəraitin qədrini bilin.

Onlar kəndə və kənd adamlarına göstərilən qayğını yüksək dəyərləndirirlər. Əli dayı deyir:

– Elə bayaq kənd meydanında gördükləriniz şəhərlərdəki tikililərdən heç də seçilmir. Bu ilin əvvəllərində Şurudda yeni kənd və xidmət mərkəzləri tikilib, məktəb binası əsaslı təmir olunub. Təmir zamanı yeni şahmat sinfi və idman zalı inşa edilib. Yeni tikintilərin yerləşdiyi ərazidə gül-çiçək əkilib, buraya su xətti çəkilib. Kənd adamına bundan artıq nə lazımdır? Şurudlular da bu işlərin onların yaxşı yaşamaları, uşaqların yaxşı oxumaları üçün olduğunu bilirlər.

Onlarla səmimi söhbətimizi yekunlaşdırıb məktəbə üz tuturuq. Yolboyu düşüncələrimə hakim kəsilən odur ki, insan özünə qarşı qayğı göröndə yaşından asılı olmayaraq, sanki uşaq kimi sevinir.

Təhsil ocağının fəaliyyəti ilə bağlı məktəbin direktoru İlham Şəkərəliyev bildirir ki, məktəb 110 şagird yerlikdir. Burada iki elektron lövhəli sinif var. Kompüter otağında quraşdırılmış 7 kompüterin hamısı internetə qoşulub. Bunlar tədrisin keyfiyyətini daha da yüksəltməyə imkan verib.

Neçə illərdir ki, məktəbdə güclü təhsil ənənələri yaradılıb. Bu ənənələr isə yüksək uğurlara yol açıb. Bir faktı qeyd edək: son 4 ildə Şurud kənd tam orta məktəbini 23 məzun bitirib. Onların 5-i bu ilin məzunlarıdır. 23 məzunun hamısı ali məktəblərə qəbul olunublar. Onlardan 8-i 500-dən yuxarı bal toplayıb. Təbii ki, bütün bunlar ucqar dağ kəndinə göstərilən dövlət qayğısı hesabına mümkün olub.

### *Gal kəndi tikinti meydançasını xatırladır*

Şuruddan Gal kəndinə qayıdırıq. Digər ünvanlarda aparılan quruculuq işlərinin tərkibinə daxil olan yolların yenidən qurulması bu kəndi də əhatə edib. Kənddə 3 obyekt inşa olunur. Yaşayış məntəqəsində təhsilin səviyyəsini daha da yüksəltmək məqsədilə tikilən yeni məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. 96 şagird yerlik məktəb binasının tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları aparırlar.

Məktəbin direktoru Təranə Nəsirova deyir ki, bu günü çoxdan gözləyirdik. Bilirdik ki, Galda da yeni məktəb binası inşa olunacaq. 2014-2015-ci tədris ilində məktəbi bitirən 5 məzundan 4-nün ali məktəbə qəbul olunmasını son hədd hesab etməyən Təranə müəllimə onu da vurğuladı ki, onlar üçün yeni məktəb binasının inşa edilməsi pedaqoji kollektivin məsuliyyət hissini daha da artırıb.

Tikinti ilə tanış olarkən keyfiyyət amilinin diqqətdə saxlanıldığını gördük. Öyrəndik ki, yerli inşaat materiallarından istifadəyə üstünlük verilir. İdarənin rəisi Tahir Əliyevin bildirdiyinə görə, müəllim və şagirdlərin ixtiyarına geniş və işıqlı sinif, kompüter, şahmat otaqları, elektron lövhəli sinif, laboratoriya, idman zalı, hərbi kabinə, kitabxana, həyətdə açıq idman qurğuları veriləcək. Müasirtipli layihə əsasında inşa olunan binanın əsas hörgü işləri tamamilə başa çatdırılıb, çardaq qurulub, qapı-pəncərələr salınıb. Hazırda binadaxili tikinti tədbirləri həyata keçirilir, həyətyanı ərazi qaydaya salınır. İnşaatçılar yeni məktəb binasını nəzərdə tutulan vaxtda təhvil vermək əzmi ilə çalışırlar. Adıçəkilən idarənin bir qrup inşaatçısı kənd və xidmət mərkəzlərinin tikintisi ilə məşğuldur. Kənd mərkəzi 2, xidmət mərkəzi 1 mərtəbədən ibarətdir. Kənd mərkəzində Galda fəaliyyət göstərən dövlət qurumları üçün müasir şərait yaradılacaq. Xidmət mərkəzində mağazalar və ət satışı yeri fəaliyyət göstərəcək.

Bəs həyata keçirilən bu tədbirlərə kənd sakinlərinin münasibəti necədir? Bu sualla bir neçə kənd sakininə müraciət etdik. Aldığımız cavablar bizdə belə qənaət yaratdı ki, XXI əsrin insanı, kənddə və ya şəhərdə yaşamasından asılı olmayaraq, müasir həyat tərzi keçirmək istəyir və bu da muxtar respublikamızda bu gün diqqətdə saxlanılan məsələlər sırasındadır. Yəni mövcud problemlər həll olunur, insanlara yaxşı həyat şəraiti yaradılır.

Kənd tam orta məktəbinin müəllimi Səfər Seyidli deyir ki, bir vaxtlar muxtar respublikanın digər ucqar yaşayış məntəqələri kimi, Galdan da köçüb gedənlər olub. Niyə? Yollar pis vəziyyətdə idi, uşaqlar uyğunlaşdırılmış siniflərdə dərs keçirdilər. Payız-qış aylarında küçələrə çıxmaq olmurdu. Vay o günə ki, kimsə xəstələnəydi. Bu sadaladıqlarımız artıq arxada qalıb. Bu gün kəndlərimizdə elə infrastruktur yaradılır ki, inana bilmirsən. Turizm üçün də, yaşamaq üçün də Galda yüksək imkanlar mövcuddur. Bu səbəbdəndir ki, muxtar respublikanın aran bölgələrindən 3 ailə burada məskunlaşmağa qərar verib.

Kənd sakini Vəli Abdullayev:

– 87 yaşım var. Ömrüm boyu təsərrüfatda çalışmışam, öz zəhmətimlə dolanmağa üstünlük vermişəm. Ancaq indi yaşadığım günləri, düzünü deyim ki, görməmişəm. Sağ olsun dövlətimizi. İmkansıza əl tutur, ev tikir, yardım edir, veterana maşın verir, sanatoriyaya göndərir. Kəndlərimizi gülüstana çevirməyi də öz yerində. Kim belə şəraitdən narazılıq edə bilər?

Beləcə, günləri həftələrə, həftələri aylara çevrilən 2015-ci il Culfa rayonunun Şurud və Gal kəndlərinin quruculuq xəritəsinə öz izlərini yazmaqdadır və bu izlər insan amilinə xidmət etməklə həmin yaşayış məntəqələrinin simasını tamamilə yeniləşdirməkdədir. Həyata keçirilən belə quruculuq tədbirlərini kənd adamları onlara göstərilən dövlət qayğısının növbəti təzahürü kimi dəyərləndirir, muxtar respublikada böyük səylər və zəhmət hesabına nail olunmuş sosial-iqtisadi inkişafa töhfələrini verməyi özlərinin vətəndaşlıq borcu sayır, arxalarında qüdrətli bir dövlətin durduğunu görür və öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirməyə səy göstərirlər.

**✍ Muxtar MƏMMƏDOV**

*İstehsal müəssisələri*

# Kiçik sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilir





Muxtar respublikamızda yeni emal və sənaye müəssisələri həyata vəsiqə alır, daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli yerli məhsullar istehsal edilir, əhalinin məşğulluğu təmin olunur, maddi rifahı daha da yaxşılaşır. Belə istehsal müəssisələrindən biri də Kəngərli rayonunun Qabıllı kəndində fəaliyyət göstərən "Korabulaq" Kiçik Müəssisəsidir. Sahibkar Pərviz Hüseynov qeyd etdi ki, uyğunlaşdırılmış binada fəaliyyətə başlayan müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdır. Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmişdir. Kəngərli rayonunun Qabıllı kəndində istehsal müəssisəsi üçün daha əlverişli yerdə torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati bina və digər yardımçı otaqlar tikilib istifadəyə verilmişdir. 2014-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə Rusiyadan alınmış gündəlik istehsal gücü 1500 şərti butulka olan istehsal xətti quraşdırılmış, limonad istehsalına başlanmışdır. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə xüsusi avtomaşın alınmışdır. Təbii ki, yeni istehsal sahələrinin yaradılması daxili bazarın müxtəlif çeşiddə yerli məhsullarla təmin edilməsi ilə yanaşı, əlavə iş yerlərinin açılmasına da imkan verir. Hazırda müəssisədə "Korabulaq" əmtəə nişanı ilə müxtəlif çeşidlərdə limonad istehsal olunur.

Müəssisənin icraçı direktoru Türkay Cəfərova bildirdi ki, texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi suyun və müxtəlif meyvə şirələrinin hazırlanması, qablaşdırılması mərhələlərindən keçməklə aparılır. Müəssisəyə gələn su əvvəlcə qum filtrindən keçirilib çənə yığılır və suyun səviyyəsi rəqəmli şüşə borularla müəyyənləşdirilir. Ümumi tutumu 10 ton olan çəndə su 2 gün saxlanılır. Sonra yenidən filtrdən keçirilərək istehsal sexinə verilir. Suyu boşaldıqdan sonra çən yuyulur, dezinfeksiya edilir. Su soyuducu qurğularda 4 dərəcəyədək soyudularaq filtrdən və ultrabənövşəyi şüadan keçirilib ozonlaşdırıldıqdan sonra istehsal sexinə ötürülür. İkinci mərhələdə isə su ilə müxtəlif meyvə şirələri reseptə uyğun qarışdırılıb, ayrı-ayrı çənlərdə müəyyən olunmuş müddətdə və temperaturda saxlanılaraq istehsal xəttinə ötürülür.

Müəssisədə sanitar-gigiyenik qaydalara əməl olunmaqla müxtəlifhəcmli plastik və şüşə butulkalarda 5 növdə – tərxun, armud, üzüm, qızılgül, portağal şirələrindən hazırlanmış limonad istehsal edilir. İstehsal olunan limonadlar 250 qramlıq, 0,5, 1 litrlik plastik, 500 və 750 qramlıq şüşə taralarda satışa çıxarılır. Plastik taralar Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Plastmas Kapsul və Qapaq İstehsalı Müəssisəsindən, şüşə taralar isə Bakı şəhərindən alınıb gətirilir.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur.

"Korabulaq" əmtəə nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. İstehsal edilən məhsulların pərakəndə və topdansatış bazalarına vaxtında və keyfiyyətlə çatdırılması mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmış, "İsuzu" markalı soyuducu kamera ilə təmin olunmuş yük avtomobilləri alınmışdır. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında da satışa çıxarılması nəzərdə tutulur.

"Korabulaq" Kiçik Müəssisəsində 5 nəfər daimi işlə təmin edilmişdir. İşçilərə normal iş şəraiti yaradılmış, onlar xüsusi geyim formaları və servis xidməti ilə təmin olunmuşlar. İşçilərdən Zərri Babayeva, Fərqanə Babayeva, Pünhanə Nağıyeva yaradılan şəraitdən razılıqlarını bildirdilər. Qeyd etdilər ki, əvvəllər hər hansı bir istehsal müəssisəsində çalışmaq üçün Naxçıvan şəhərinə getmək məcburiyyətində qalır, əlavə problemlərlə üzləşirdik. Kəndimizdə istehsal müəssisəsinin yaradılması, yeni iş yerlərinin açılması bu problemi aradan qaldırıb. İnanırıq ki, ayrı-ayrı yaşayış məntəqələrində yerli şəraitə uyğun istehsal müəssisələrinin sayı daha da artacaq.

Onu da qeyd edək ki, uzun illərdir, Kəngərli rayonunun Qabıllı kəndi ərazisində çağlayan "Korabulaq" adlanan bulağın suyundan istifadə olunmaqla istehsal edilən və "Korabulaq" əmtəə nişanı ilə satışa çıxarılan limonadlar az bir vaxtda daxili bazarda özünəməxsus yer tutub.

**✍ Kərəm HƏSƏNOV**

# Təhsil yarmarkası keçirilib

***Sentyabrın 4-də Naxçıvan şəhərində təhsil yarmarkası keçirilib. Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev açıb.***

Qeyd olunub ki, ölkə başçısının 5 sentyabr 2009-cu il tarixli “Təhsil haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Fərmanının icrasını təmin etmək və gənc kadrların iş şəraitini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 avqust 2014-cü il tarixli Qərarı ilə “Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumtəhsil müəssisələrində işə başlamış mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 aprel tarixli Qərarında dəyişiklik edilib. Yeni qərara əsasən, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş, dövlət sifarişi ilə iş yerlərində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti ümumi təhsil müəssisələrində davam etdirən 35 yaşadək gənc mütəxəssislərə bu müddət ərzində kommunal xidmətlərini ödəmək üçün 60 manat, rayon mərkəzindən 20 kilometrdən artıq məsafədə yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində əməkhaqqına hər ay 160 manat məbləğində əlavələr ödəniləcəkdir. Üçillik müddət bitdikdən sonra həmin və ya digər kənd məktəbində pedaqoji fəaliyyətini davam etdirən gənc mütəxəssislərə daha 2 il müddətində kompensasiya əməkhaqqına əlavə olunacaqdır.



Vurğulanıb ki, təhsilə göstərilən diqqət və qayğı ən yüksək səviyyədədir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə son 20 il ərzində muxtar respublikada dünya standartlarına cavab verən, ən müasir avadanlıqlarla təchiz olunmuş 200-dən çox təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. 2015-ci ildə də 2 orta ixtisas, 1 peşə, 16 ümumtəhsil məktəbi və yeni yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir.

Təhsil müəssisələrinin maddi-texniki bazasının yüksək səviyyədə qurulduğunu qeyd edən təhsil naziri bildirib ki, muxtar respublikanın ümumtəhsil müəssisələrinə 3700 dəst kompüter verilib. Onların 84 faizi internetə qoşulub. Bundan əlavə, ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə quraşdırılıb. Ümumtəhsil məktəblərində təhsil alan əlaçı şagirdlərdən 828 nəfərinə Ali Məclisin Sədri tərəfindən kompüter hədiyyə olunub.

Qeyd olunub ki, muxtar respublika rəhbərinin tapşırıq və tövsiyələri ilə 2005-ci ildən ənənəvi olaraq keçirilən təhsil yarmarkaları muxtar respublikamızda təhsilin keyfiyyət və kəmiyyətcə inkişaf etdirilməsinə öz təsirini göstərib. Gənc kadrların yetişdirilməsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yaxından iştirak edir. 2015-ci ildə də Təhsil şöbələri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq mərkəzlərinin birgə fəaliyyəti nəticəsində muxtar respublika ərazisində yerləşən məktəblərin vakant yerləri ixtisaslar üzrə müəyyən edilib. Muxtar respublikanın təhsil müəssisələri üzrə boş iş yerlərinin uçotu aparılıb və müəyyən edilib ki, hazırda muxtar respublikada 19 Azərbaycan dili və ədəbiyyat, 39 xarici dil, 24 riyaziyyat, 10 informatika, 15 tarix, 44 coğrafiya, 21 fizika, 18 kimya, 25 biologiya, 48 ibtidai sinif müəllliminə ehtiyac var və ümid edirik ki, keçirilən bu təhsil yarmarkası məktəblərin pedaqoji kadrlarla təminatı işində mühüm əhəmiyyət kəsb edəcək.

İşaxtaran vətəndaş İlahə Səfərova təhsil yarmarkasının keçirilməsinin böyük əhəmiyyət daşıdığını deyib, bu işdə əməyi olanlara minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada məşğulluq məsələlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərdən bəhs edib.

Tədbirə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev yekun vurub.

Qeyd edək ki, Naxçıvan şəhərində təşkil edilən təhsil yarmarkasında 136 nəfərə işə göndəriş verilib.

**Səbuhi HƏSƏNOV**

Təhsilli gənclik hər bir ölkənin intellektual sərvətidir. Bu sərvətdən səmərəli istifadə, müxtəlif sahələr üzrə mütəxəssislərin hazırlanması qarşıda duran əsas vəzifədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu məsələnin vacibliyini nəzərə alaraq demişdir: ***“Gənclərimiz yaxşı oxumalıdır, bilik sahibi olmalıdır, peşəkar olmalıdırlar. Çünki bu gün Azərbaycanda bütün imkanlar var. İqtisadiyyat inkişaf edir, yeni iş yerləri, yeni sənaye müəssisələri, xidmət sahələri açılır. Peşəkar kadrlara böyük ehtiyac var. Mən çox istəyirəm ki, bizim əsas, aparıcı sahələrimizin inkişafında Azərbaycan gəncləri öz rollarını oynasınlar”.***

# Peşə təhsilinin inkişafı istiqamətində görülən işlər öz bəhrələrini verir



Naxçıvan Muxtar Respublikasında təhsilin bütün pillələri kimi peşə təhsilinin inkişaf strategiyası hələ müstəqil dövlət quruculuğunun ilk illərində ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmışdır. Günü-gündən yeniləşən Naxçıvan özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. Bu illərdə uğurla həyata keçirilən dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ixtisaslı kadrlara yaranan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki-peşə təhsili sisteminin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)” mühüm əhəmiyyət daşıyan sənəd olmuşdur. Dövlət proqramının tələblərinin yerinə yetirilməsi və bu gün muxtar respublikamızın həyatında baş verən sosial-iqtisadi dəyişikliklər, yeni sənaye və xidmət sahələrinin yaradılması, müasir informasiya texnologiyalarının tətbiqi muxtar respublikamızda peşə təhsilinin inkişafı və bu yolla ixtisaslı işçi kadrlarının yetişdirilməsini də zəruri etmişdir. Bu mənada, peşə təhsili sisteminin genişləndirilməsi muxtar respublikada daim diqqət mərkəzində saxlanılmış, 2009-cu ildə Naxçıvan şəhərində peşə liseyi istifadəyə verilmişdir. Qeyd edilməlidir ki, Naxçıvan Şəhər Peşə Liseyi artıq beş ildir, kadr hazırlığını və məzun buraxılışını həyata keçirir. Liseydə peşə hazırlığını yüksək səviyyədə təşkil etmək üçün lazımi şərait yaradılmışdır. Burada təhsil alanlar yataqxana və gündəlik isti yeməklə təmin olunurlar. Peşə liseyi bazar iqtisadiyyatına uyğun yeni ixtisaslar açılmasına stimul yaradır və muxtar respublikamızda ixtisaslı işçi kadrlarının yetişdirilməsində mühüm rol oynayır.

Ofisiant, turizm bələdçisi, kompüter istifadəçisi, qazanxana maşinisti, elektrik-qaz qaynaqçısı, kommersiya agenti, meyvə-tərəvəz ustası, əməliyyatçı mühasib, dərzi, inşaat rəngsazı, xalçaçı və sair ixtisaslara olan ehtiyacları ödəyə biləcək texniki-peşə təhsili şəbəkəsinin genişləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

İqtisadiyyatın inkişafı ilə əlaqədar ən müasir elektron texnologiyalarla təchiz olunmuş maşın və mexanizmlərin muxtar respublikamıza gətirilməsi, iqtisadiyyatın müxtəlif sahələrində istifadə edilməsi onların təhsilli və ixtisaslı kadrlar tərəfindən idarə olunmasını tələb edir. Odur ki, 2012-ci ildə Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəb Kompleksi istifadəyə verilmişdir. Yüksək şəraitə və maddi-texniki təchizata malik olan məktəbdə 4 elektron lövhəli sinif, 2 metodik kabinə, 2 avtotrenajor sinfi, internetə qoşulmuş 18 kompüteri olan 1 sinif otağı vardır. 2014-cü ildən Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu da məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsinə, təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanmasına geniş imkanlar açmışdır. Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçirilir. Bunun üçün 8 avtotrenajordan istifadə olunur. Təlim kursu başa çatdıqdan sonra müdavimlər bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün imtahan verirlər. 2015-ci ilin 6 ayında məktəbdə “B”, “C”, “BC”, “D” və “E” kateqoriyaları üzrə 50 qrup açılmış, qruplarda 1478 nəfər müdavim təhsil almışdır.

Xalqımıza məxsus milli sərvətlərimizdən olan xalçaçı sənətinin qorunub saxlanılması və müasir dövrdə gənclərimizə aşılanması üçün bu sahə üzrə mütəxəssislərin hazırlanmasının vacibliyi, bununla yanaşı, ən müasir rabitə, informasiya texnologiyaları və xidmət sahələrinə artan tələbat yeni peşə ixtisaslarının yaradılmasını tələb edir. Bu tələbatın zəruriliyi nəzərə alınaraq ötən il Şərur Texniki-Peşə və Sürücülük Məktəb Kompleksi istifadəyə verilmişdir. Şərur şəhərində fəaliyyət göstərən, dünya standartlarına cavab verən, yüksək maddi-texniki baza ilə təchiz olunan və gələcəkdə muxtar respublikanın müxtəlif sahələrini əhatə edə biləcək ixtisaslı kadrların hazırlanması üçün yeni inşa olunmuş 360 şagird yerlik məktəbdə 11 elektron lövhəli sinif, 21 kompüteri olan 1 sinif, 4 emalatxana, 83 yerlik yataqxana, yeməkxana, sürüş təlimi üçün məşq meydançası, mini-futbol meydançası və idman zalı fəaliyyət göstərir. İlkin mərhələdə məktəbə 11 ixtisas üzrə 220 şagird qəbul edilmişdir. Gələcəkdə real bazarın tələblərini nəzərə alaraq qadın bərbəri, bərbər, qaz təsərrüfatı avadanlıqlarının təmiri üzrə çilingər, kompüter istifadəçisi, traktorçu-maşinist, xalçaçı, kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant və sürücülük peşələri üzrə qəbul aparılmışdır. Yaradılmış şərait şagirdlərin peşəyə olan marağının artırılmasına, peşə təlimi istiqamətinin daha da inkişaf etdirilməsinə stimul yaratmış, bu günədək məktəbə 13 peşə ixtisası üzrə 585 nəfər müdavim qəbul olunmuşdur. Müdavimlərdən 455 nəfəri təhsilini başa vuraraq şəhadətnamə ilə təmin olunmuş və əksəriyyəti istehsalatın müxtəlif sahələrində işlə təmin edilmişdir.

2014-2015-ci tədris ilində Ordubad Peşə Məktəbində elektrik-qaz qaynaqçısı, kommersiya agenti, meyvə-tərəvəz ustası, əməliyyatçı mühasib, dərzi və inşaat rəngsazı peşə ixtisasları üzrə 116 nəfər müdavim, Culfa Peşə Məktəbində əməliyyatçı mühasib, traktorçu-maşinist, elektrik-qaz qaynaqçısı, tikiş avadanlıqları operatoru, tikişçi və dərzi peşə ixtisasları üzrə 75 nəfər müdavim, Naxçıvan Şəhər Peşə Liseyində bərbər-manikürçü, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, traktorçu-maşinist, elektrik-qaz qaynaqçısı və arıçı peşə ixtisasları üzrə 60 nəfər müdavim illik qruplara qəbul edilmişdir. Məlumat üçün qeyd etmək istərdik ki, bu tədris ilində muxtar respublikanın ilk peşə təhsili müəssisələrini 272 məzun bitirmiş və onların əksəriyyəti istehsalatın müxtəlif sahələrində ixtisaslı işçi kadr kimi əmək fəaliyyətinə başlamışdır.



Ümumilikdə, bu tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrindən 2943 nəfər müdavim məzun olmuşdur.

Peşə təhsili müəssisələrində şagirdlərin istehsalat təcrübəsinin keçirilməsi daim diqqətdə saxlanılan məsələlərdəndir və bu proses üçün təhsil müəssisələrində lazımi şərait yaradılmışdır. İstehsalat təcrübəsi istehsalat təliminin yekun mərhələsi olub, əsas vəzifəsi öyrənilən ixtisas üzrə şagirdlərin bilik, bacarıq və vərdişlərini möhkəmləndirməkdən, təkmilləşdirməkdən və onlarda əməyə dərin məhəbbət hissi aşılamaqdan ibarətdir.

Muxtar respublikada fəaliyyət göstərən peşə təhsili müəssisələrində oxuyan şagirdlərin nəzəri biliklərinin praktik bacarıqları ilə əlaqəli şəkildə inkişaf etdirilməsi məqsədilə hər bir ixtisasa uyğun gələn istehsalat sahəsi ilə təhsil müəssisələri arasında müqavilələr bağlanılır. Həmin müqavilələrə uyğun olaraq, şagirdlər istehsalat təlimi ustalarının nəzarəti altında ixtisaslarına uyğun olan sahə üzrə istehsalat təcrübəsi keçirlər. Nəzəri biliklərin praktikada möhkəmləndirilməsini təmin edən istehsalat təcrübəsinin sonunda hər bir şagird üçün istehsalat xasiyyətnaməsi verilir ki, bu da onların buraxılış imtahanlarında iştirakına zəmanət verir. Ali Məclis Sədrinin Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında sərəncamından irəli gələn vəzifələri yerinə yetirmək üçün peşə təhsili müəssisələrində tədris prosesində muzeylərlə interaktiv əlaqənin təşkili və elektron təhsil texnologiyalarından səmərəli istifadə üçün elektron təhsilin tətbiqinin genişləndirilməsi məqsədilə müəyyən işlər görülmüşdür. Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Xatirə Muzeyi, Cəmşid Naxçıvanskinin ev-muzeyi ilə interaktiv əlaqə təmin edilmişdir.

Təhsilin bütün sahələrində olduğu kimi, peşə təhsilinə də göstərilən qayğı davam etdirilir. Bunun bariz nümunəsidir ki, Ordubad Texniki-Peşə və Sürücülük Məktəbinin binası yenidən qurulur. Gələcəkdə bu peşə təhsili müəssisəsi də müasir avadanlıqlarla təchiz edilmiş yeni binada fəaliyyət göstərəcəkdir.

Bütün bu sadalananlar muxtar respublika rəhbərinin həyata keçirdiyi uğurlu təhsil siyasətinin, təhsilimizə göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

*Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi:* ***“Bu gün hərbi quruculuğun təxirəsalınmazlığı ölkəmizin düşdüyü müharibə vəziyyəti ilə bağlıdırsa, təhsil sahəsinə diqqətin təxirəsalınmazlığı ölkəmizin gələcəyi ilə bağlıdır. Odur ki, təhsil dünən olduğu kimi, bu gün də, gələcəkdə də bir nömrəli vəzifələr sırasında dayanacaqdır”.***

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Parlament seçkiləri – 2015

# Seçki marafonu

## 1 noyabr 2015-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər günüdür

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 8-ci maddəsində və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş qaydada Ali Məclisə deputat seçilmək hüququ – **passiv seçki hüququ vardır.**

Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan seçicilər tərəfindən irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin.

**Ümumi seçki hüququ**

**İrqindən, milliyyətindən, dilindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, vətəndaşların seçmək və seçilmək hüququ vardır.**

İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilə bilməzlər.

Bundan başqa, məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

Seçkilərin təyin edilməsi barədə qərar kütləvi informasiya vasitələrində rəsmi dərc edildikdən sonra seçki prosesinin çox önəmli bir mərhələsinə – deputatlığa namizədliyin irəli sürülməsinə start verilir.

**Birbaşa seçki hüququ**

**Vətəndaşlar seçkilərdə namizədin lehinə və ya əleyhinə şəxsən səs verirlər. Başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə cəlb olunurlar.**

***Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə deputatlığa namizədliklərin öz təşəbbüsü ilə irəli sürülməsi***

**Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 13-cü maddəsinə uyğun olaraq, Ali Məclisə seçkilərdə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə iştirak edirlər.**

***Öz təşəbbüsü ilə deputatlığa namizədliyini irəli sürən vətəndaş müvafiq dairə seçki komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:***

- deputatlığa namizədliyin irəli sürülməsinə dair bildiriş;
- deputatlığa namizədliyi irəli sürülmüş şəxsin vətəndaşlığına və məhkumluğuna (əgər varsa) dair məlumatlar, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş ərizəsi;
- namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, həmin səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi;
- namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd. Bu halda namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bu bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.

***Dairə seçki komissiyası tərəfindən təqdim edilmiş sənədlərin alınması barədə namizədə yazılı arayış verilir.***

**Bərabər seçki hüququ**

**Vətəndaşlar seçkilərdə bərabər əsaslarla iştirak edirlər.**

**Səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır.**

**Vətəndaşların hər bir səsi eyni hüquqi qüvvəyə malikdir.**

Müvafiq dairə seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərar təqdim edir.

***Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz***

Namizədin irəli sürülməsini təsdiq edən qərarın surətini verməkdən imtina edilməsi üçün əsas yalnız "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 49.2 və 49.3-cü maddələrində göstərilən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədlərin irəli sürülməsinin Qanunla müəyyənləşdirilmiş qaydasının pozulması ola bilər.

**Səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq dairə seçki komissiyası sənədlər təqdim edildikdən sonra 5 gün müddətdə namizədi bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir.**

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası*

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Xarici ölkənin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bu barədə öz ölkəsinin hər hansı orqanına məlumat verməlidirmi?*

**Cavab:** Azərbaycan Respublikası vətəndaşının xarici ölkə vətəndaşlığını qəbul etdikdən sonra bu barədə ölkənin səlahiyyətli orqanlarına bu barədə məlumat verməsi qanunvericilikdə nəzərdə tutulmamışdır. Lakin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 28 aprel 2015-ci il tarixli Qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 318-2-ci maddə əlavə edilmişdir. Maddədə göstərilir ki, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə müvafiq icra hakimiyyəti orqanına bir ay müddətində yazılı məlumatın verilməməsinə görə həmin şəxs üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatadan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır.

Qanunun tələbinə əsasən, hər bir Azərbaycan Respublikası vətəndaşı hər hansı xarici ölkənin vətəndaşlığını qəbul etdikdən sonra bir ay müddətində bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və Dövlət Miqrasiya Xidmətinə yazılı məlumat verməlidir. Belə məlumatın verilməməsi isə yuxarıda qeyd olunan məsuliyyətə səbəb olur.

*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi*

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin avqust ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 167178 | 16718 | 16798 | 100,5 |
| 2. | Kəngərli rayonu | 246902 | 24690 | 24781 | 100,4 |
| 3. | Ordubad rayonu | 376567 | 37657 | 37708 | 100,1 |
| 4. | Sədərək rayonu | 84260 | 8426 | 8437 | 100,1 |
| 5. | Culfa rayonu | 322952 | 32295 | 32334 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 979133 | 97913 | 98007 | 100,1 |
| 7. | Şərur rayonu | 607150 | 60715 | 60751 | 100,1 |
| 8. | Babək rayonu | 583132 | 58313 | 58320 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3973606 | 397296 | 380017 | 95,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **7340880** | **734023** | **717153** | **97,7** |

## Elan

12 sentyabr 2015-ci il tarixdə saat 11[00]-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə səhiyyə işçiləri üçün əmək yarmarkası keçirəcəkdir. İşaxtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

*Ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, 5*
*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binası*

## Həmyerlimiz növbəti dəfə dünya çempionu olub

Cari ildə muxtar respublika idmançılarının beynəlxalq arenalarda qazandıqları uğurlara daha biri əlavə olunub.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi İlkin Səfərov bu dəfə bayrağımızı İngiltərənin Norviç şəhərində dalğalandırmağa müvəffəq olub. Bu şəhərdə MMA qarışıq döyüş növü üzrə keçirilən dünya çempionatında idmançımız finala kimi rinqdə rəqiblərinə qalib gəlib. Həlledici qarşılaşmada onun rəqibi yerli döyüşçü olub. İlkin Səfərov rəqibini məğlub edərək cari ildə ikinci dəfə dünya çempionu adını qazanıb.

Qeyd edək ki, idmançımız iyul ayında İtaliyada keçirilən dünya çempionatında da fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı.

## Şahbuz rayonunda idman yarışları keçirilib

***Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi rayon Gənclər və İdman İdarəsi ilə birgə ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə rayon birinciliyi keçirib.***

İsveçrə sistemi ilə keçirilən yarışın məqsədi məktəblilərin asudə vaxtının səmərəli təşkili və onların bu idman sahəsinə cəlbindən ibarət idi. 20 zəka sahibinin qüvvəsini sınadığı birincilik gərginliyi ilə yadda qalıb və Umud Məhərrəmli bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. Digər iki pillədə isə Tuncay Cabbarov və Sunay Hüseynli qərarlaşıblar.

Şahmat birinciliyi ilə yanaşı, təşkilatçılar ümumtəhsil məktəblərinin şagirdləri arasında velosiped üzrə rayon birinciliyi də təşkil ediblər. Sahbuz şəhərində 28 May və Səməd Vurğun küçələri arasında 2000 metr məsafəni 20-dən çox velosipedçi birinci qət etməyə çalışıb. Yarışın yekun nəticəsinə əsasən, Murad Bağırov rəqiblərini qabaqlayaraq finiş xəttinə hamıdan tez çatıb. Elçin Hüseynli və Aydın Muradlı isə rayon birinciliyini müvafiq olaraq ikinci və üçüncü pillədə başa vurublar.

Şahbuz rayonunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında futbol üzrə yoldaşlıq görüşü keçirilib. Uşaq-Gənclər İdman Məktəbinin komandası ilə Şahbuzkənd komandasının üz-üzə gəldiyi görüş "sülh"lə yekunlaşıb – 2:2.

Keçirilən tədbirlərdən sonra uğur qazanan idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 685